RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 196 (8219) ŞƏNBƏ, 7 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Zəlzələ bölgəsindən reportaj



## “Ömür boyu Prezidentimizə, Mehriban xanıma borclu və minnətdar olacağıq”

### İlham Əliyevin tapşırığı və nəzarəti altında tikilən onlarla evdə sakinlər yeni həyata başlayıblar

**...7 ay öncə, fevralın 5-dən 6-na keçən gecə Şamaxıda baş verən zəlzələ nəticəsində xoşbəxtlikdən insan tələfatı olmamışdı. Amma xeyli sayda sosial-iaşə obyektinə ciddi ziyan dəymiş, insanlar qorxulu, həyəcanlı anlar yaşamışdılar.**

Həmişə xalqının ağır günündə ona dəstək verən Prezident İlham Əliyev bu təbii fəlakət zamanı şamaxılıların yanında oldu və evləri yararsız duruma düşən sakinlərə təskinlik verdi, söylədiyi fikirlər əhalidə ruh yüksəkliyi yaratdı. Prezident vəziyyətlə tanış olub əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini verdi.

Sakinlərlə söhbət zamanı Prezident dövlətin zəlzələnin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürdüyünü və bütün qəzalı evlərin qısa müddət ərzində ya bərpa ediləcəyini, ya da yenidən tikiləcəyini bildirdi: “Təbii ki, belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə, sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcək. Komissiya işləyir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları buradadır, yerli icra hakimiyyəti də işləyir. Hələ ki, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların məskunlaşması ilə bağlı məşğuldurlar. Eyni zamanda tezliklə bu evlərin bərpası, yenidən tikilməsi nəzərdə tutulur. Müvafiq sərəncam imzalanacaq, Prezidentin Ehtiyat Fondundan vəsait ayrılacaq”.

Prezidentin bu fikirlərindən sonra sakinlər bir daha əmin oldular ki, evləri yenidən bərpa olunacaq və ya yenisi tikiləcək.

Ardı 3-cü səh.

## Azərbaycan regional əməkdaşlıq proseslərində fəal iştirak edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da türkdilli dövlətlərin xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. İclasın ikitərəfli və çoxtərəfli əməkdaşlığımızla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev ölkələrimiz arasında etimada əsaslanan çox sıx qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi. Dövlət başçısı ölkələrimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək, bu təmasların təhlükəsizliyin və regional sabitliyin təmin olunmasındakı rolunu vurğuladı. Azərbaycanın regional əməkdaşlıq proseslərində fəal iştirak etdiyini deyən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsi üçün səylərin bundan sonra da davam etdiriləcəyini bildirdi. Dövlət başçısı iclasda müzakirə edilən məsələlərin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Görüşdə çıxış edən qonaqlar Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının növbəti iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirdilər və bu tədbirin ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin və sıx əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyini vurğuladılar.

## Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclasının iştirakçılarına

Hörmətli iclas iştirakçıları!

Sizi Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclasında ürəkdən salamlayıram.

Azərbaycan Respublikası beynəlxalq təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir. Müasir dünyada sülhə və sabitliyə yeni, daha təhlükəli təhdidlər yaranmaqdadır. Bu təhdidlərin vaxtında aşkarlanaraq qarşısının alınması bütün dövlətlərin milli maraqları və davamlı inkişafı baxımından son dərəcə vacibdir. Regional, hətta qlobal xarakterli təhlükələrin dəf edilməsi üçün dünya dövlətlərinin fəaliyyətinin əlaqələndirilməsi zəruridir.

Qardaş türkdilli dövlətlərlə əlaqələrin möhkəmlənməsi Azərbaycan üçün xüsusi önəm daşıyır. Müxtəlif formatlarda həyata keçirilən əməkdaşlığımız qarşıda duran bir çox məsələlərin həlli, o cümlədən regional təhlükəsizliyin təmin edilməsi, ekstremizm, terrorçuluq və separatçılıq, qeyri-qanuni miqrasiya, narkotik maddələrin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkar qrupların fəaliyyətinin qarşısının alınması istiqamətində səylərimizin birləşməsinə yönəlmişdir.

Dövlətlərimizin üzləşdiyi risk və təhdidlərlə mübarizədə xüsusi xidmət orqanları müstəsna rol oynayır. Bu mənada Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanlarının Konfransı ölkələrimizin təhlükəsizliyinin təmin edilməsi sahəsindəki fəaliyyətimizi əlaqələndirməyə və XXI əsrin çağırışlarına birlikdə cavab tapmağa imkan verən səmərəli vasitələrdən biridir.

Əminəm ki, bu iclas tərəfdaş qurumlar arasında təcrübə mübadiləsi və analitik-informasiya dəstəyi üçün əlverişli şərait yaradacaq və bununla da beynəlxalq təhlükəsizliyin təmin edilməsinə töhfə verəcəkdir.

Bir daha sizi Azərbaycanda salamlayır, işinizdə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2019-cu il*



## Xəzəri əvəzsiz edən yalnız nefti deyil

### Təkcə bu il dənizə 130 milyondan çox balıq körpəsi buraxılmışdır

Ölkəmizdə xüsusi diqqət ayrılan sahələrdən biri də balıqçılıqdır. “Balıqçılıq haqqında” qanun hələ 1998-ci ildə qəbul olunmuşdur. Qanunda ölkədə balıqçılığın təşkili, idarə edilməsi, balıq resurslarının artırılması, istifadəsi və mühafizəsinin hüquqi əsasları müəyyən edilmişdir. 2014-cü ildə isə qanuna müəyyən dəyişikliklər olunmuşdur. Bu qanun çərçivəsində Azərbaycanda akvakulturaların yaradılmasına ildən-ilə diqqət artır və dövlət tərəfindən bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilir.

Yeri gəlmişkən, qeyd edək ki, ərzaq təhlükəsizliyinin təmin edilməsində akvakulturaların yetişdirilməsi bütün dünyada mühüm əhəmiyyət kəsb edən vacib məsələlərdən sayılır. BMT-nin Ərzaq və Aqrar Təsərrüfatı Təşkilatının hesabatında göstərilir ki, 2014-cü ildə dünya üzrə 164,3 milyon ton balıq istehsal edilmiş və istehsal olunan balığın 50 faizindən, yəni tən yarısından çoxu akvakultura təsərrüfatlarında yetişdirilmişdir.

Ardı 3-cü səh.

## Halal zəhmət, xoş güzəran



**Maraqlı insandır, həyata öz baxışları var, söhbətləri şirindir, tez-tez atalar sözlərindən misal çəkir. Deyir ki, hər kəs bacardığı işin arxasınca getsə yaxşıdır. Onun fikrincə, hər işi yönündə-yöndəmində görməsən, zəhmət çəkib tər axıtdığın işdən xeyir görə bilməzsən.**

Ağcabədidə hamı onu “geroy Tofiq” kimi tanıyır. Rayonun sayılıb-seçilən pambıqçılarındandır. Yeni Qaradolaq kəndində doğulub boya-başa çatan Tofiq İsmayılov 40 ildən çoxdur ki, pambıqçılıqla məşğuldur. Mehr saldığı, ülfət bağladığı torpaq çəkdiyi zəhmətin əvəzində onun üzünü hər zaman el-oba, ailə-uşaq yanında əkib-becərdiyi pambıq kimi ağ edib. Əmək ətirli ömür yolundan, bu yolda qazandığı uğurlardan söhbət düşəndə Tofiq İsmayılov deyir:

- Pambıq bu yerlərin şöhrəti, çörək təhnəsidir. Hələ sovet hakimiyyəti dövründə kolxozda çalışan kənd adamları pambıqdan yaxşı qazanırdılar. Halal zəhməti hesabına əldə etdiyi qazancla kimi geniş eveşik tikdirir, kimi maşın alırdı. Dolanışıq sarıdan demək olar ki, heç kim heç nədən korluq çəkmirdi. 90-cı illərdə nədənsə pambığa münasibət dəyişdi. Bu gəlirli sahə başlı-başına buraxıldı. Torpaqdan küsdürülən kəndli tarlanı çayxana ilə dəyişdi. Həmin illər faydalı bir işin qulpundan yapışmalı, işləyib pul qazanmalı, ailəsinin xoş güzəranını təmin etməli olan əmək qabiliyyətli kişilər çayxanalarda lövbər salıb, günlərini nərd, domino oynamaqla keçirirdilər. Kəndlərimizin ürək dağlayan bu mənzərəsi Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələri, o cümlədən pambıqçılığı inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmaq barədə tarixi çağırışınadək davam etdi. Bu çağırışdan sonra elə bil kəndlərimizin üstünə gün doğdu. “Ağ qızıl”ın yenidən ağ günləri başladı. O vaxt rayon icra hakimiyyətində yaradılan, həm də səmərəli fəaliyyət göstərən qərargah Prezidentin tapşırıq və tövsiyələrini yerinə yetirmək üçün bütün imkan və ehtiyat mənbələrini səfərbər etmişdi.

Ardı 4-cü səh.

## Braziliya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Jair Bolsonaruya

Hörmətli cənab Prezident!

Braziliyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Braziliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2019-cu il*

## Kapital qoyuluşunda daxili mənbələrin payı yüksəkdir

### Xarici sərmayədarlar da bu sahədə fəallıqlarını davam etdirirlər

Ölkə iqtisadiyyatının dinamik inkişafında kapital qoyuluşu önəmli rol oynayır. Belə ki, hər hansı bir vəsait qoyuluşu olmadan nə islahat keçirmək, nə də mühüm layihələri icra etmək olar.

Son 15 ildən çox dövr ərzində istər infrastruktur, istər istehsal, istərsə də sosial sahələrdə həyata keçirilən layihələrə milyardlarla manat vəsait yatırılıb. Bu səbəbdən qısa müddətdə ölkədə etibarlı və dayanıqlı infrastruktur yaradılıb. Bununla yanaşı, qeyri-neft sektorunda minlərlə kiçik, orta və iri müəssisələrin fəaliyyətə başlaması da sərmayə qoyuluşu nəticəsində mümkün olub.

Ardı 3-cü səh.

# Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə növbəti qanvermə aksiyası təşkil olunub





Sentyabrın 6-da Yeni Azərbaycan Partiyasının (YAP) təşəbbüsü ilə növbəti qanvermə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, partiyanın İcra Katibliyində təşkil olunan aksiyada Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov, YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, partiyanın İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, deputatlar, YAP-ın Bakı şəhəri və Abşeron rayon təşkilatlarının üzvləri iştirak ediblər.

YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, bu aksiya partiya üzvlərinin vətənpərvərliyindən, onların ölkəmizdə həyata keçirilən bütün xeyirxah işlərdə fəallıq göstərməkdə maraqlı olmasından xəbər verir. Bu aksiyanın məhərrəm ayına təsadüf etdiyini deyən S.Novruzov qeyd edib ki, dini mərasimlər dövründə dindən kənar hərəkət etmək olmaz: "Kimsə Aşura günü zəncir vurur, başını yarır, amma bunların heç biri olmaz, çünki Quran qadağan edir. Allah da buyurub ki, heç kəs öz bədəninə ziyan vura bilməz. Ona görə də ən düzgün yol qan verməkdir. Aşura günü insanlar məscidlərə gedib qan versinlər".

Bu təşəbbüsün əhəmiyyətini vurğulayan S.Novruzov deyib ki, aksiya irsi qan xəstəliklərindən əziyyət çəkən insanlara, o cümlədən uşaqlara böyük yardım edəcək. Partiyamızın üzvlərinin aksiyada fəal iştirak etdiyini deyən S.Novruzov söyləyib ki, YAP bu cür təşəbbüslərlə mütəmadi olaraq çıxış edir və belə aksiyalar gələcəkdə də davam edəcək.

Qanvermə aksiyasının humanist xarakterli tədbir olduğunu deyən YAP icra katibinin müavini bildirib ki, partiyanın üzvləri bu təşəbbüsləri ilə həm də nümunə göstərirlər. Müxalifət nümayəndələrini də bu aksiyaya dəvət edən S.Novruzovun sözlərinə görə, onlar indiyə qədər nə qanvermə, nə ağacəkmə, nə də digər xeyirxah tədbirlər keçirməyib, əksinə, görülən müsbət işlərə kölgə salmağa çalışıblar, öz fəaliyyətlərini, söyüş, təhqir, böhtan üzərində qurublar.

Aksiyada iştirak edən B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu Mərkəzi Qan Bankının müdir müavini Namirə Abbasova da Yeni Azərbaycan Partiyasının bu təşəbbüsünü yüksək dəyərləndirib. O vurğulayıb ki, partiyanın hər il belə aksiya təşkil etməsi çox humanist addımdır. Yığılan qanlar talassemiya, hemofiliya, digər qan xəstəliklərindən əziyyət çəkən insanlara veriləcək. Bu qanlar əvvəlcə laboratoriyalarda yoxlanılacaq. Yaşı 18-65 olan sağlam insanlar qan verə bilərlər. Burada insanlar qan verməmişdən əvvəl həkim müayinəsindən keçirlər. İnfeksion xəstəliklər keçirmiş, şəkərli diabet, zob, ürək çatışmazlığı olan, əməliyyat keçirmiş insanlar qan verə bilməz. Qanvermənin müsbət cəhətləri də var. Belə ki, təzyiq yüksəkdirsə qan verdikdən sonra bu normallaşır, qan yaradan orqanların fəaliyyəti yüksəlir, ürək fəaliyyətinə müsbət təsir edir. Ən əsası, insanlar özlərini xoşbəxt hiss edirlər ki, qan verməklə qana ehtiyacı olan insanlar üçün yardım göstərirlər.

Qeyd edək ki, qanvermə aksiyasında ümumilikdə 300 nəfər iştirak edib.

# Azərbaycan-Pakistan parlamentlərarası əlaqələri müzakirə edilib

Sentyabrın 6-da Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Xeybər Paxtunxva Əyalət Assambleyasının Sədri Müştaq Əhməd Qaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycan ilə Pakistanın dost və qardaş ölkələr olduğunu deyib. Bildirib ki, müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, keçirilən görüşlər və aparılan danışıqlar ölkələrimiz arasında mövcud olan əlaqələrin daha da möhkəmlənməsinə təkan verir. Sədrin birinci müavini onu da qeyd edib ki, Pakistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı dəstəkləyir.

Söhbət zamanı Ziyafət Əsgərov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə danışıb. Diqqətə çatdırıb ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Problemin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasında müvafiq qətnamələr qəbul olunub. Lakin bu qətnamələrə bugünə qədər əməl olunmur. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı da dəfələrlə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətini pisləyib, ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə edib.

Xeybər Paxtunxva Əyalət Assambleyasının sədri Müştaq Əhməd Qani deyib ki, Pakistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. O, ölkəmizin müstəqilliyi dövründə inkişaf edən əlaqələrimizdən, Heydər Əliyev Fondunun Pakistandakı xeyriyyəçilik tədbirlərindən məmnunluqla söz açıb. Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanın inkişafında yüksək nəticələr əldə olunduğunu vurğulayıb, iki ölkə arasında əlaqələri genişləndirməyin yaxşı perspektivləri olduğunu diqqətə çatdırıb.

Pakistanda mövcud olan Kəşmir, Azərbaycanda isə Dağlıq Qarabağ münaqişələrindən danışan qonaq bu problemlərin həllində Pakistan və Azərbaycanın həmişə bir-birinə dəstək verməsindən məmnunluğunu ifadə edib. Bildirib ki, Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və Ermənistanı bir dövlət kimi tanımır. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında öz ədalətli həllini tapmayana qədər rəsmi İslamabad Ermənistanla heç bir münasibət qurmayacaq.

Xeybər Paxtunxva Əyalətinin İnformasiya naziri Şövkət Əli Yusafzai deyib ki, Azərbaycana gələn nümayəndə heyətinin tərkibində ticarət və biznes təmsilçiləri də var. İnvestorlarımız Azərbaycana sərmayə yatırmaq istəyirlər. Neft-qaz hasilatını genişləndirmək niyyətində olan Pakistan bu sahədə lider dövlət olan Azərbaycanın yardımına ehtiyac duyur. Enerji sahəsində əməkdaşlıq qarşılıqlı faydalı olar.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, 1995-2005-ci illərdə Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupuna rəhbərlik etmiş olan Eldar İbrahimov həmin 10 il ərzində görülən işlərdən, ikitərəfli rəsmi səfərlərdən, əməkdaşlığın inkişafı baxımından nail olunan nəticələrdən danışıb.

Görüşdə parlamentlərarası əlaqələrin inkişafı və tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının sədr müavini Milli Məclisdə olub

Sentyabrın 6-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) sədr müavini, Pakistan Parlamentinin Beynəlxalq əlaqələr üzrə komitəsinin sədri Müşahid Hüseyn Seyid ilə görüşü olub.

Milli Məclisdən AZƏRTAC-a verilən məlumata görə, komitə sədri qonağı salamlayaraq bildirib ki, Azərbaycan Asiya ölkələri ilə münasibətlərə xüsusi önəm verir. Azərbaycan-Pakistan əlaqələri yüksələn xətlə inkişaf edir. Bu ölkənin nümayəndə heyətləri mütəmadi olaraq Azərbaycana səfər edirlər. Qeyd edilib ki, Azərbaycanın hakim Yeni Azərbaycan Partiyası Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı ilə yaxından əməkdaşlıq edir. Biz təşkilatın fəaliyyətini dəstəkləyirik.

Səməd Seyidov Milli Məclisin və sədrlik etdiyi komitənin fəaliyyəti barədə məlumat verib. Parlament diplomatiyası və parlament ənənələrinin formalaşması baxımından ölkədə əhəmiyyətli işlərin görüldüyünü deyib. Müxtəlif ölkələrlə, o cümlədən Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qruplarının mövcud olduğunu söyləyib.

Söhbət zamanı ölkəmizin müstəqillik illərində dinamik inkişafı, dünya dövlətləri, həmçinin Pakistanla əlaqələrin genişləndirilməsi barədə söhbət açılıb. Qeyd edilib ki, biz region dövlətləri ilə münasibətləri qarşılıqlı faydalı əməkdaşlıq əsasında həyata keçiririk.

Qonaq səmimi görüşə görə təşəkkürünü ifadə edib. Təmsil etdiyi təşkilatın YAP-ın fəaliyyətini yüksək dəyərləndirdiyini söyləyib. Azərbaycanın yüksəksəviyyəli nümayəndə heyətlərinin Pakistana səfərlərini yüksək qiymətləndirib. Parlamentlərarası əlaqələrin genişləndirilməsinin təcrübə və informasiya mübadiləsi baxımından vacibliyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Zaqatalada, nazirin birinci müavini Qaxda vətəndaşları qəbul edib

Sentyabrın 6-da Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Zaqatala şəhərində, nazirin birinci müavini Əli Abdullayev isə Qaxda vətəndaşlarla görüşüb.

Nazirin qəbulunda Zaqatala və Balakən rayonları, nazirin birinci müavininin qəbulunda Qax sakinlərinin müraciətlərinə baxılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi nəqliyyat, telekommunikasiya, poçt xidmətləri və digər məsələlərlə bağlı vətəndaşları dinləyib.

Bir sıra vətəndaş müraciətləri yerindəcə öz müsbət həllini tapıb. Araşdırılması tələb olunan müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq həlli ilə əlaqədar nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib.

Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan müraciətlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

**AZƏRTAC**

# Xaricdə magistr təhsilinə dair müsabiqənin qalibləri Azərbaycanın xarici siyasətinin uğurları barədə məlumatlandırılıb





"Xaricdə magistr təhsilinin maliyyələşdirilməsi" müsabiqəsinin qaliblərinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə görüşü olub. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Gənclər Fondundan məlumat verilib.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərovun da iştirak etdiyi görüşdə Prezident Administrasiyasının şöbə müdiri Hikmət Hacıyev gənclərin ölkəmizin xarici siyasəti, eləcə də turizm, nəqliyyat, ticarət sahələrində gördüyü işlər barədə suallarını cavablandırıb. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası dövlət quruculuğunun bütün istiqamətlərdə, o cümlədən xarici siyasət sahəsində ciddi uğurlara imza atıb. Azərbaycan Respublikası, sözün əsl mənasında, müstəqil xarici siyasət yürüdən ölkədir. Bu müstəqil siyasətin əsasını Azərbaycanın milli maraqları və ölkə vətəndaşlarının mənafeyinin qorunması təşkil edir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu strategiya tarixi təcrübəni, geosiyasi reallıqları nəzərə alaraq çoxistiqamətli və tarazlaşdırılmış əsasda praqmatik və realist prinsiplərlə həyata keçirilir. Gərgin və nizamsız beynəlxalq münasibətlər şəraitində ölkəmiz beynəlxalq hüququn norma və prinsipləri əsasında xarici siyasət yürüdərək heç bir dövlətin daxili işlərinə qarışmır və özünün də daxili işlərinə qarışmağa heç bir dairəyə imkan vermir.

# Bakıda Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclası keçirilib




Sentyabrın 6-da Bakı şəhərində Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXII iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Əli Nağıyev, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi general-leytenant Orxan Sultanov, Türkiyə Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidan, Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin sədri Kərim Məsimov, Qırğızıstan Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Orozbek Opumbayevin, eləcə də müşahidəçi qismində Özbəkistan Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizovun rəhbərlik etdikləri nümayəndə heyətləri, Gürcüstan Dövlət Təhlükəsizlik Xidmətinin yüksəkvəzifəli əməkdaşı iştirak edib.

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir müstəqil dövlətimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra nümayəndə heyətləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Tədbir iştirakçıları Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni də ziyarət edərək önünə gül dəstəsi düzüblər.

Həmin gün öz işinə başlayan iclası giriş sözü ilə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Əli Nağıyev açıb, tədbirin işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbir iştirakçılarını salamlayıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbrik məktubunu oxuyub *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Daha sonra general-leytenant Əli Nağıyev çıxış edərək Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransına üzv olan və müşahidəçi qismində iştirak edən dövlətlər üçün ciddi təhlükə doğuran terrorçuluğa, dini ekstremizmə və təcavüzkar separatçılığa birmənalı və vahid mövqedən yanaşmanın zəruri olduğunu bildirib.

Xidmət rəisi türkdilli dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları arasında dinamik surətdə inkişaf edən tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirib, ölkələrimizin milli təhlükəsizliyinin etibarlı təmin olunması baxımından təcrübə və məlumat mübadiləsinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

General-leytenant Əli Nağıyev Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Türkiyənin Ankara şəhərində Daimi Katibliyinin təsis edilməsinin əməkdaşlıq sahələrində birgə fəaliyyətə müsbət təsirini göstərəcəyinə, yeni reallıqlar nəzərə alınmaqla işgüzar münasibətlərin effektivliyinin yüksəlməsinə əlverişli şərait yaradacağına ümidvar olduğunu söyləyib.

İclasda çıxış edən Xarici Kəşfiyyat Xidmətinin rəisi general-leytenant Orxan Sultanov beynəlxalq terrorçuluğun dövlətlərimizin milli mənafelərinə yaratdığı təhdidlərdən danışıb. General-leytenant Orxan Sultanov bu baxımdan türkdilli dövlətlərin xüsusi xidmət orqanları arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Türkiyə Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidan, Qazaxıstan Milli Təhlükəsizlik Komitəsinin sədri Kərim Məsimov, Qırğızıstan Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Orozbek Opumbayev, Özbəkistan Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizov və Gürcüstan Dövlət Təhlükəsizlik Xidmətinin Antiterror Mərkəzinin rəhbəri İrakli Çimakadze də ölkələrimizin təhlükəsizliyinin səmərəli təmin olunması üzrə əməkdaşlıq perspektivləri barədə danışaraq terrorçuluğa zəmin yaradan radikallaşma proseslərinə qarşı görülən tədbirləri qeyd edib və hər cür ekstremist təzahürlərlə mübarizədə işbirliyinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Tədbirdə digər iştirakçıların da çıxışları və multimedialı təqdimatları maraqla qarşılanıb, beynəlxalq terrorçu və dini-ekstremist təşkilatlara qarşı mübarizədə əməkdaşlığın fəallaşdırılması və təkmilləşdirilməsi üsulları, həmçinin müxtəlif təhdid və cinayətlər barədə əməliyyat məlumatları mübadiləsinə dair və maraq doğuran digər məsələlər ətrafında geniş müzakirələr aparılıb.

Tədbirin sonunda Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Türkiyənin Ankara şəhərində Daimi Katibliyinin yaradılması haqqında, həmçinin XXII Bakı iclasının nəticələri üzrə müvafiq sənədlər imzalanıb.

Konfransın növbəti iclasının gələn il Qazaxıstanın Almatı şəhərində keçirilməsi qərara alınıb.

# Azərbaycan XİN işğal olunmuş ərazilərimizdə qondarma "seçkilərin" keçiriləcəyinə dair məlumata münasibət bildirib

Ermənistan mətbuatında bu il sentyabrın 8-də Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "yerli özünüidarəetmə seçkilərinin" keçiriləcəyi barədə məlumat yayılır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bununla bağlı KİV-in sualını cavablandırıb.

Leyla Abdullayeva deyib: "Ermənistan kütləvi informasiya vasitələrinə əsasən ölkəmizin Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "seçkilər" donu ilə təqdim edilən növbəti şounun təşkili nəzərdə tutulur. Hər kəsə çox yaxşı bəlli olan bir reallıq var; hərbi təcavüz, işğal, etnik təmizləmə, qanunsuz əməllər halında hansı "seçki"dən danışırsansa danış, nə bu hazırlanan tamaşa, nə də onun nəticələri beynəlxalq ictimaiyyət tərəfindən tanınmır və tanınmayacaq. Azərbaycanın işğal olunmuş torpaqlarında işğalçı ölkə olan Ermənistan tərəfindən yaradılmış oyuncaq rejimlə də bağlı bu, eynilə belədir.

Xatırladıram, bugünə kimi keçirilmiş dırnaqarası seçkilərlə bağlı beynəlxalq ictimaiyyət, o cümlədən həmsədr ölkələri, bu qanunsuz əməlləri və onların nəticələrini tanımadıqlarını birmənalı şəkildə qeyd ediblər. Ermənistan tərəfinin müxtəlif ölkələrdə erməni diaspor təşkilatları və lobbist qruplarının dəstəyi ilə təşkil olunan tədbirlərdə ölkəmizin Dağlıq Qarabağ bölgəsindəki oyuncaq rejimi təbliğ etmək səylərinə, təşkil edilən qanunsuz səfərlərə, təxribat xarakterli əməllərinə rəğmən həqiqət birdir və dəyişilməzdir. Bu həqiqətin nədən ibarət olduğunu konkret misallara istinadən qeyd edim.

Avstraliya timsalında, bu yaxınlarda Avstraliyaya qanunsuz rejimin agentlərinin səfəri təşkil olundu və bu, sanki qondarma rejimin "tanınması" kimi qələmə verməyə çalışıldı. Avstraliya federal hökumətinin Azərbaycanın ərazi bütövlüyünə dəstəyi əlbəttə bəllidir, eyni zamanda, bu son hadisələrdən sonra Avstraliya XİN-i rəsmi internet səhifəsində Azərbaycanın ərazi bütövlüyünün bu ölkə tərəfindən dəstəkləndiyini və Dağlıq Qarabağın "müstəqil dövlət" kimi tanınmadığını bəyan etdi.

Başqa bir misal, Almaniya XİN-i erməni mətbuatında, guya ki, qondarma rejimin Almaniyadakı torpaq seçkilərində müşahidəçi qismində iştirakına dair məlumata cavab olaraq yazılanların əsassız olduğunu səfirliyimizə bildirib və Almaniyanın nə Dağlıq Qarabağı, nə də orada keçirilən "seçkiləri" tanımadığını vurğulayıb.

Bu kimi daha çox misalı qeyd edə bilərəm. Bir sözlə, həqiqət ondan ibarətdir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu, bütün beynəlxalq sənədlərdə öz əksini tapır".

# “Ömür boyu Prezidentimizə, Mehriban xanıma borclu və minnətdar olacağıq”

## İlham Əliyevin tapşırığı və nəzarəti altında tikilən onlarla evdə sakinlər yeni həyata başlayıblar

*Əvvəli 1-ci səh.*










Elə həmin gün dövlət başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 2 milyon manat ayrılması haqqında sərəncam imzaladı.

Zəlzələdən cəmi bir ay conra, martın 7-də isə Şamaxıya səfər edən dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni inşa edilmiş evlərlə tanış oldular, sakinlərlə söhbət etdilər. Prezident İlham Əliyev Ağsu rayonunda da görülən işlərlə yerində tanış oldu. Həmin gün Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Prezidentin Ehtiyat Fondundan daha 11 milyon manat vəsait ayrıldı.

İndi Şamaxıda tam başqa ab-hava var. Şahidi olduğumuz mənzərə həqiqətən də xoş təəssürat yaradır. Çünki zəlzələdən ötən müddətdə burada çox böyük tikinti-quruculuq işləri aparılıb. Müvəqqəti olaraq sığınacaqlarda yerləşdirilən ailələrin əksəriyyəti yeni mənzilinə köçüb. Elə biz də onların xoş anlarına şahidlik etmək üçün yeni mənzillərinin qapılarını döydük...

*“Ağbirçək ana kimi Prezidentimə, onun xanımı Mehriban Əliyevaya minnətdaram. Çünki bizi darda qoymadı, harayımıza yetişdi. Köhnə evlərimizin yerində əvvəlkindən daha yaxşısını tikdirdi. Baxın, evlərimizin bütün əşyaları da alınıb. Heydər Əliyev Fondu iki aya bizə təzə ev tikib verdi. Bizə bu gözəl şəraiti yaratdıqlarına görə ömür boyu Prezidentə, onun həyat yoldaşına borclu və minnətdar olacağıq. Vallah, belə Prezident heç yerdə yoxdur. Mehriban xanımın insanlara qayğısını, etdiyi yaxşılıqları Allah balalarının, nəvələrinin qarşısına çıxarsın. Tanrı Prezidentimizi qorusun. Nə yaxşı ki, İlham Əliyev kimi rəhbərimiz var”.*

Zəlzələ nəticəsində yaşadığı mənzili tam qəzalı vəziyyətə düşən Mehparə Bağırova indi yeni tikilən 4 otaqlı evində xoş günlərini yaşayır. Danışdıqca sevinc göz yaşlarını da saxlaya bilmir. 38 ildir Şamaxıdakı 1 saylı orta məktəbdə müəllimə işləyən Mehparə xanım həyətdə oynayan nəvələri- Nahid və Nihadı göstərərək deyir: *“Nəvələrimin gələcəyi üçün, onların rahat, xoşbəxt yaşamaları üçün bizə yardım edən dövlət başçımıza minnətdaram. Bu ev Prezidentin nəvələrimə, ailəmə hədiyyəsidir. Allah Mehriban xanıma da yar olsun. Onun tapşırığı ilə Heydər Əliyev Fondu bizi evsiz qoymadı. Hər zaman insanların qayğısına qalan, kimsəsizə əl tutan Mehriban xanımı Allah bu xalqa çox görməsin”.*

Zəlzəldən öncə qızı və iki nəvəsi ilə Təbriz küçəsində 2 otaqlı mənzildə yaşayan Mehparə Bağırovanın sözlərinə görə əvvəlki evləri 1953-cü ildə tikilibmiş. Zəlzələ nəticəsində köhnə evin əksər divarları qəzalı duruma düşüb. Zəlzələ ilə əlaqədar yaradılmış xüsusi komissiyanın rəyindən sonra Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi tərəfindən Bağırovlar ailəsi üçün yeni 4 otaqlı, tam təmirli mənzil inşa olunub.

Zəlzələ nəticəsində evləri tam yararsız hala düşən Süleymanovlar ailəsi də böyük sevinc içərisindədir. Ev sakini Fəxri Süleymanov deyir ki, zəlzələ nəticəsində 1923-cü ildə tikilmiş köhnə evləri ciddi zərər görmüşdü. Ancaq tezliklə, cəmi 2 aya dövlət onlara tam təmirli yeni mənzil tikib.

Fəzri Süleymanovun qızı Ellada Süleymanova isə bizimlə söhbətində bildirdi ki, zəlzələ onlara böyük həyəcan yaşatsa da, Prezidentin Şamaxıya səfəri zamanı söylədiyi fikirlər hamı kimi onlara da böyük təsəlli olub: *“Cənab Prezident Şamaxıya gəlib insanlarla səmimi görüş keçirdi və dedi ki, ciddi zərər görmüş evlər söküləcək. Bizim də evimizə ziyan dəymişdi. Mənzildə yaşamaq qorxulu idi. Mart ayının 7-də Birinci vitse-prezident Mehriban xanım Əliyeva da dövlət başçısı ilə Şamaxıya gəlmişdi. Biz də görüşə getmişdik. Orada Mehriban xanıma vəziyyətimiz barədə məlumat verdik. Birinci xanım dedi ki, mütləq ev söküləcək və daha yaxşısı tikiləcək. Bir müddətdən sonra Heydər Əliyev Fondunun “Regionların İnkişafı” İctimai Birliyinin nümayəndələri evə baxış keçirdi və köhnə mənzilimiz sökülərək yerində əvvəlkindən daha möhtəşəm ev tikildi”.*

Ellada Süleymanovanın sözlərinə görə, artıq neçə müddətdir ki, yeni tam təmirli 3 otaqlı mənzillərində xoşbəxt həyat sürürlər və onları bu acınacaqlı durumdan xilas edən ölkə Prezidentinə, Mehriban xanım Əliyevaya hər zaman duaçıdırlar: *“Bunu bütün Azərbaycan xalqı bilir ki, ölkə Prezidenti hər zaman xalqın yanındadır. Heç bir problem Prezidentin diqqətindən yayınmır və daim xalq üçün böyük işlər görür. Onu da deyim ki, bizim də harayımıza ilk yetişən Prezidentimiz oldu. Mehriban xanım da bizi çarəsiz durumda qoymadı. Şamaxı sakini olaraq ailəmiz adından dövlət başçımıza, Mehriban xanım Əliyevaya dərin təşəkkürümü bildirirəm. Hər zaman insanların qayğısına qalırlar, kimsəsizlərə, xəstələrə yardım edirlər”.*

Yaradılmış xüsusi komissiyaya Ağsu, Şamaxı və İsmayıllı rayonları üzrə 10 min 649 müraciət daxil olub, onlardan 10 min 608-nə baxılıb. Qəzalı vəziyyətdə olan fərdi yaşayış evlərinin yenidən tikilməsi üçün layihə institutlarında smetalar hazırlanıb, bu gün də işlər davam edir. Artıq bərpaya ehtiyacı olan evlərlə bağlı komissiyaların rəyi təsdiqlənib.

Tikilən evlərin keyfiyyəti Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin daim diqqətindədir. Tikilən və bərpa edilən evlərin keyfiyyəti ilə bağlı texniki qruplar mütəmadi olaraq hər 3 rayonda inşaat işlərinə nəzarət edir. Bu günə kimi təhvil verilən evlərin keyfiyyəti ilə bağlı vətəndaşlardan şikayət daxil olmayıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı əsasında “Regional İnkişaf” İctimai Birliyinin nümayəndələri və könüllüləri Ağsu, İsmayıllı və Şamaxı rayonlarında zəlzələdən zərər çəkmiş evlərin sakinləri ilə görüşərək, onların problemlərinin həlli istiqamətində dövlət qurumları ilə birlikdə sıx işləyib, insanlara mənəvi dəstək göstəriblər. Həmçinin “Regional İnkişaf” İctimai Birliyi tərəfindən rayonda bir sıra sosial obyektlərin tikintisi nəzərdə tutulub.

Həsən Qasımzadənin sözlərinə görə, qəzalı evlərin sayı 847-dir. Ümumilikdə 547 ev tikiləcək. İndiyədək 251 ev tikilib, 257-si isə tikiləcək. Şamaxı şəhəri ərazisində müxtəlif səbəblərdən yerində tikintisi mümkün olmayan fərdi yaşayış evlərinin sakinləri üçün dördmərtəbəli 44 mənzilli, beşmərtəbəli 20 mənzilli və beşmərtəbəli 110 mənzilli yaşayış binalarının tikintisinə başlanıb.

Göründüyü kimi, bu gün Şamaxıda zəlzələdən ziyan çəkən sakinlər üçün həm fərdi, həm də çoxmərtəbəli yaşayış binalarının tikintisi davam etdirilir. Dövlət başçısının tapşırığına uyğun olaraq tezliklə, yeni qış ayları başlamamış mənzillər sakinlərə təhvil verilməlidir.

Biz isə yeni evlərinə köçən sakinlərlə görüşlərimizi və tikilməkdə olan hündürmərtəbəli binalarda görülən işlərlə tanışlığımızı davam etdiririk.

*(Ardı var)*

***Rəşad BAXŞƏLİYEV, Elçin CƏFƏROV, “Azərbaycan”***

# Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyada ictimai təşkilatlarla görüş olub

Sentyabrın 6-da İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya və Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilat rəhbərlərinin görüşü keçirilib





AZƏRTAC xəbər verir ki, görüş zamanı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya çərçivəsində dövlət-özəl dialoqunun həyata keçirildiyini bildirib: “Komissiyanın üzvləri, katibliyi və işçi qrupları bir tərəfdən dövlət qurumlarının nümayəndələri, digər tərəfdən isə özəl sektorun təmsilçilərindən ibarət olmaqla, həm də beynəlxalq təşkilatların aparıcı konsaltinq şirkətləri və beyin mərkəzilərini, qeyri-hökumət təşkilatlarını əhatə edir. Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya çərçivəsində dövlət-özəl dialoqu uzun müddətli strateji hədəflərə istiqamətlənməklə yanaşı, mobil idarəetmə strukturuna malikdir. “Azranking.az” portalı dövlət-özəl dialoqunu rəqəmsal platformaya keçirməklə nəticəəsaslı fəaliyyəti təmin edir. Bu tip dövlət-özəl dialoqunun həyata keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların inklüziv, nəticəəsaslı, kompleks və sistemli olmasını təmin edir. Azərbaycanda dövlət özəl dialoqunun həyata keçirilməsi yaxşi idarəetmə və açıq hökumət prinsiplərinə uyğundur. Digər tərəfdən isə dövlət-özəl dialoqunun həyata keçirilməsi vətəndaş iştirakçılığı üçün geniş imkanlar yaradır. Beləliklə, iqtisadi siyasət fövqündə insan amili dayanır, iqtisadi siyasət Azərbaycan vətəndaşının layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətlənir”.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın katibliyinin rəhbəri Vüsal Şıxəliyev çıxış edib. O, Portalın funksionallığı, eyni zamanda “Elektron Kargüzarlıq Sistemi”ndə istifadə ilə bağlı ictimai birliklər və biznes assosiasiyalarının nümayəndələrinə ətraflı məlumatlar təqdim edib.

Əlavə edib ki, bu portal Azərbaycanda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın rəqəmsal təşkili üçün yaradılıb. Portalda komissiya haqqında ümumi məlumat, qanunvericilik bazası, fəaliyyət, reytinqlər, müqayisə, onlayn müraciət və əlaqə bölümləri yer alıb. Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən Portalda komissiyanın iclaslarında baxılan məsələlər və qəbul edilən qərarlar barədə məlumatların ictimaiyyət, eləcə də kütləvi informasiya vasitələrində şəffaf və əlçatan olaraq yayılmasını təmin etmək məqsədi daşıyır. Komissiya haqqında ümumi məlumat, qanunvericilik bazası, fəaliyyət, reytinqlər, müqayisə, onlayn müraciət və əlaqə bölümləri yer alıb.

Ədliyyə Nazirliyinin QHT-lər ilə iş şöbəsinin rəisi Səbinə Salmanova bildirilib ki, “Fərdi elektron pəncərə” sisteminə 14 dövlət qurumu və bütün qeyri-kommersiya qurumları daxildir. Eyni zamanda, sistemdə elektron xidmətlərin təkmilləşdirilməsi və genişləndirilməsi ilə bağlı mütəmadi tədbirlər görülür. Davamlı olaraq təkmilləşdiriləcək tədbirlərə qrant müqavilələrinin qeydiyyatı üzrə müraciətlərin elektron qəbulu və cavablandırılması, QHT-lərin təsis sənədlərində və dövlət reyestrində onlar barədə qeydə alınan faktlarda edilən dəyişikliklər ilə bağlı müraciətlərin elektron qəbulu, qeydiyyatı və cavablandırılması, həmçinin dövlət reyestrindən çıxarışların elektron formada verilməsi ilə bağlı işlər daxildir.

Ədliyyə Nazirliyinin İnformasiya təminatı şöbəsinin rəisi Qismət Qurbanov isə Prezidentin fərmanı əsasında yaradılan “Fərdi elektron pəncərə” sistemi barədə iştirakçılara daha geniş məlumat verib.

Tədbirdə ictimai təşkilatların rəhbərləri çıxışlar edib. Onlar Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın fəaliyyətində yaxından iştirak etməkdə maraqlı olduqlarını, bundan sonrakı prosesə daha geniş tərkibdə qoşulacaqlarını söyləyiblər. İctimai fəallar, həmçinin iqtisadi islahatların aparılması sahəsində müxtəlif təkliflər səsləndiriblər.

# Kapital qoyuluşunda daxili mənbələrin payı yüksəkdir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə ölkə iqtisadiyyatına kapital qoyuluşunun əhəmiyyətini vurğulayaraq demişdir: “İnvestisiyaların təşviqi sahəsində görülən işlər də regionların inkişafına müsbət təsir göstərir və investisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bugünədək 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Bunların nəticəsində 16 mindən çox yeni iş yerinin açılması artıq reallaşıb”.

Yatırılan sərmayə sayəsində 9 sənaye parkı və məhəllələri fəaliyyət göstərir və ya fəaliyyət göstərilməsi üçün tikinti-quraşdırma işləri aparılır. Artıq sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident isə fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq qoyulub ki, bunun da nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda bu layihələrin fəaliyyəti nəticəsində artıq 5,5 milyard manatlıq məhsul istehsal olunub. Bunun da 300 milyon manatlıq hissəsi xarici bazara ixrac edilib.

Aqrar sektorda məhsul istehsalına nail olmaq üçün dərin islahatlar keçirilir. Burada fərdi, kiçik və orta fermer təsərrüfatlarına dövlət tərəfindən hərtərəfli dəstək verilir. Məqsəd bu yolla həm məhsul istehsalının artırılmasına nail olmaq, həm də aqrar sektorda sahibkarlığın inkişafını dəstəkləməkdir.

Bu istiqamətdə atılan digər bir addım isə müasir texnika və texnologiyalardan istifadə edən, yüksək məhsuldarlığa nail olan iri fermer təsərrüfatlarının və aqroparkların yaradılmasıdır. Hazırda ölkə üzrə 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Cari ilin sonunadək 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Həmin layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına əlavə olaraq 2,4 milyard manat investisiya qoyulacaq. Bunun müsbət nəticələri də var. Məsələn, taxılçılıqda ölkə üzrə məhsuldarlıq 30 sentner olduğu halda, belə təsərrüfatlarda bu göstərici 60 sentnerdən yüksəkdir.

Kapital qoyuluşu həyata keçirilərkən sahibkarlığın inkişafına da xüsusi önəm verilir. Bu məqsədlə sahibkarlara güzəştli şərtlərlə kredit verilir ki, onlar da bu vəsaiti istehsal və xidmət sahələrinə yönəltməklə iqtisadi inkişafa öz töhfələrini versin. Cari ildə iş adamlarına 170 milyon manat səviyyəsində kreditin ayrılması nəzərdə tutulub. İlin 6 ayı ərzində sahibkarlara 50 milyon manatadək güzəştli kredit verilib. İlin ikinci yarısında isə 120 milyon manat həcmində güzəştli kreditlərin ayrılması planlaşdırılıb.

Dövlət sosial və infrastruktur layihələrinə kapital qoyuluşunu davam etdirir. Cari ildə onlarla məktəb, 10 mərkəzi xəstəxana yenidən tikiləcək və ya əsaslı təmir olunaraq istifadəyə veriləcək. Həmçinin 3 olimpiya kompleksinin açılışı da nəzərdə tutulur. İlin birinci yarısında 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Ümumilikdə isə son 15 il ərzində 15 min kilometr yol çəkilib ki, bu da ölkədə mükəmməl avtomagistralların yaranmasına imkan verib.

Cari ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7 milyard 395,5 milyon manat vəsait yönəldilib. Ümumi sərmayənin 64,3 faizi məhsul istehsalı sahələrinin, 24,3 faizi xidmət sahələrinin, 9,3 faizi isə yaşayış evlərinin tikintisinin payına düşüb.

Hesabat dövründə kapital qoyuluşunda qeyri-dövlət sektoru daha fəal olub. Belə ki, ümumi sərmayənin 47,7 faizi dövlət, 52,3 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Əsas kapitala yönəldilən vəsaitlərin 67,7 faizi tikinti-quraşdırma işlərinə sərf edilib. Eyni zamanda kapital qoyuluşunda daxili sərmayələrin çəkisi də yüksək olub. Həmin dövrdə yatırılan ümumi sərmayənin 70,8 faizi onların payına düşüb.

Əsas kapitala yönələn sərmayədə müəssisə və təşkilatların vəsaitləri 4085,5 milyon manat, bank kreditləri 584,9 milyon manat, büdcə vəsaitləri 2081,3 milyon manat, büdcədənkənar fondların vəsaitləri 113,4 milyon manat, əhalinin şəxsi vəsaitləri 506,6 milyon manat və s. vəsaitlər isə 23,8 milyon manat təşkil edib.

Dünyada baş verən maliyyə gərginliklərinə baxmayaraq, xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilən vəsaitin həcmi 1752,7 milyon manat olub. Həmin vəsaitin 81,1 faizi Birləşmiş Krallıq, Türkiyə, İsveçrə, ABŞ, Yaponiya, Malayziya, Rusiya, İran və Norveç sərmayədarlarına məxsusdur.

İqtisadiyyata qoyulan sərmayə nəticəsiz qalmır. Belə ki, yatırılan sərmayənin sayəsində bu ilin 6 ayında ölkə iqtisadiyyatı 2,4, qeyri-neft sektoru 3,2 faiz artmışdır. Ən yüksək artım isə 15,7 faizlə qeyri-neft sənayesində qeydə alınıb. Bunun sayəsində qeyri-neft ixracı da 15 faiz artıb. Kənd təsərrüfatında da yüksək göstərici müşahidə edilib. İlin 6 ayında kənd təsərrüfatında məhsul istehsalı 13 faiz artıb, bitkiçilikdə isə bu rəqəm 25 faizə çatıb.

***Rüstəm KAMAL, “Azərbaycan”***

# Xəzəri əvəzsiz edən yalnız nefti deyil

## Təkcə bu il dənizə 130 milyondan çox balıq körpəsi buraxılmışdır

*Əvvəli 1-ci səh.*

Akvakulturaların yaradılmasının dünyada çox qədim tarixi mövcuddur. Çin ərazisində təxminən 4 min il əvvəl balıqların süni yetişdirilməsi üçün nohurlar yaradılmışdır. Roma imperiyasında isə Aralıq dənizinin sahillərində şorsulu laqunlarda balıq yetişdirilirdi. Sakit okeanın çoxsaylı adalarının sahillərində də balıq yetişdirilməsi üçün kiçik körfəzlərdən və buxtalardan istifadə olunmuşdur. Azərbaycanda isə balığın süni yetişdirilməsi üçün ilk təcrübələr XIX əsrin sonlarına aiddir. Artıq 1901-ci ildə rus alimi N.A.Borodin Kürün üstündəki “Borodin” vətəgəsində Kür nərələrinin yetkin kürüsünü əldə etmişdir. O illər nərələrin süni artırılması nəticəsində 2,4 milyondan çox uzunburun nərənin və 560 min Kür nərəsinin körpələri yetişdirilərək dənizə buraxılmışdır.

Onu da qeyd edək ki, 1954-cü ildə nərəkimilərin süni artırılması üçün dünyada ilk nərəbalıqartırma zavodu Azərbaycanda tikilib istifadəyə verilmişdir. Həmin illər qızıl balığın süni artırılması təşkil edilmişdir. Artıq ötən əsrin ortalarında iki belə balıqartırma zavodu qurulmuşdur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da ölkədə balıqartırma zavodları istifadəyə verilmişdir. 2000-ci ildə ölkədə belə müəssisələrin sayı 12-yə çatmışdır. Eyni zamanda, özəl sektorun təmsilçiləri kiçik göllər yaradaraq balıq yetişdirməyə başlamışlar.

Sonrakı illərdə də dövlət bu istiqamətdə ciddi addımlar atmış, balıqların artırılmasına və mühafizəsinə çəkilən xərclər nəzərəçarpacaq dərəcədə artmışdır. 2000-ci ildə bu istiqamətdə çəkilən xərclər 124,8 min manat olmuşsa, 2005-ci ildə həmin rəqəm 467 min, 2010-cu ildə 1,782 milyon, 2017-ci ildə 3,1 milyon manata çatmışdır. O cümlədən süni balıq artırılmasına 2000-ci ildə 106,1 min manat xərclənmişsə, 2017-ci ildə həmin məbləğ 2,8 milyon manat olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda vətəgə əhəmiyyətli balıq körpələrinin yetişdirilməsinə xüsusi diqqət yetirilir. Statistik rəqəmlər də bu növ balıqların sayının ildən-ilə artmasını sübut edir. (Məlumat üçün bildirək ki, vətəgə əhəmiyyətli balıq növlərinə nərəkimilər, qızıl balıq, çəkikimilər və bitki ilə qidalanan balıqlar aiddir). Əgər təbii su hövzələrinə və anbarlarına buraxılan bu növ balıqların ümumi sayı 2010-cu ildə 427 milyon idisə, 2017-ci ildə həmin rəqəm 10 milyon ədəd artaraq 437 milyona çatmışdır.

Bu ilin statistik rəqəmlərinə gəldikdə isə vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 130,9 milyon balıq körpələrinin 127,8 milyonu bitki ilə qidalanan balıqlar, 2,6 milyonu çəkikimilər, 0,3 milyonu nərəkimilərdir.

2019-cu ilin birinci yarısında vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 907,4 min manat sərf olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, bu vəsaitin 80 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 20 faizi balıqçılıq təsərrüfatı üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənmişdir.

Xəbər verildiyi kimi, bu il avqustun əvvəlində Pirallahı rayonunda “Nərəkənd” balıqyetişdirmə kompleksi layihəsi çərçivəsində yaradılan “NərəMİZ” balıqyetişdirmə zavodunun açılışı olmuşdur. Təməli 2017-ci ildə qoyulan kompleksin ümumi sahəsi 6 hektardır. İllik istehsal gücü ilkin mərhələdə 100 ton nərə, 25 ton çökə əti və 4 ton qara kürüdən ibarət olacaq. “NərəMİZ” balıqyetişdirmə zavodunda müasir texnologiyalarla suyun təkrar dövriyyəsini təmin edən qapalı tipli ferma inşa edilmişdir. Burada yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılacaq. Ümumi illik istehsalat həcminin 200 ton balığa və 20 ton kürüyə çatdırılması planlaşdırılır.

Bu layihənin icrası ölkədə qeyri-neft sektorunun inkişafı, o cümlədən idxalı əvəzləyəcək məhsulların istehsalı baxımından mühüm əhəmiyyətə malikdir. Akvakulturaların inkişafında yeni yaradılan müəssisələr həm də bu işlə məşğul olan sahibkarlar üçün pilot layihəsi kimi xüsusi əhəmiyyət kəsb edir.

Bütün görülən tədbirlərə, əldə olunan göstəricilərə baxmayaraq, Azərbaycanda balıqçılıq sahəsində daha yüksək nəticələrə nail olmaq mümkündür. Məsələn, Xəzərdə marikulturanın yetişdirilməsi və inkişafı məqsədilə qəfəs tipli balıq təsərrüfatlarının yaradılmasına geniş imkanlar var. Bundan əlavə, Xəzərin sahilyanı rayonlarında xarici ölkələrin biotexnologiya təcrübələrindən istifadə etməklə yüksək məhsuldarlı balıqçılıq təsərrüfatları yaratmaq mümkündür. Mütəxəssislərin hesablamalarına görə, akvakultura və marikultura fəaliyyətinin genişləndirilməsi balıq məhsullarına olan daxili tələbatı tam ödəməkdən başqa, yeni ixrac imkanları da yarada bilər.

***Bahadur İMANQULİYEV, “Azərbaycan”***




# Hacıqabul və Biləsuvarda pambıq yığımına başlanılıb

## Hələlik əl ilə



Aylardan bəri pambıqçıların gözlədiyi vaxt yaxınlaşır. Bir müddət yamyaşıl olan sahələr ağ örpəyə bürünür. Martın sonu, aprelin əvvəlində min bir ümid və arzu ilə torpağa səpilən çiyid sürətlə "ağ qızıl"a çevrilir.

Bu isə kəndliyə asan başa gəlmir. Nahaq yerə deməyiblər ki, pambıq körpə uşaq kimidir. Hər gün sahələrə baş çəkib onu alaq otlarından təmizləmək, cərgələr arasına kultivasiya çəkmək, gübrəsini vermək, suvarmaq, ziyanvericilərə qarşı mübarizə aparmaq, digər aqrotexniki tədbirlər həyata keçirmək lazımdır. Hamısı da vaxtında, gecikdirilmədən.

Torpaq tayı-bərabəri olmayan sərvətdir. Onun hər qarışından səmərəli istifadə etdikdə məhsul bolluğu yaranır. Torpağa belə münasibət həm də onun etibarlı qorunması üçün zəmanət verir. Bu vacib məsələ Hacıqabulda da öz həllini tapır, əkinçiliyin intensiv metodlarından bacarıqla istifadə olunur.

Cari il rayonda 400 hektarda pambıq əkilmişdir. Nümunəvi qulluq nəticəsində sahələrdə bol məhsul yetişmişdir. Hədəf hər hektardan 30 sentner "ağ qızıl" əldə etməkdir. Vegetasiya dövründə sahələrdə 3-4 dəfə kompleks becərmə aparılmışdır. Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru İkram Əliyevin dediklərindən məlum oldu ki, 400 hektar pambıq sahəsinin 250 hektarı maşınlarla yığılacaq. Bunun üçün rayona kifayət qədər defelyant gətirilib. "Aqrolizinq" ASC rayon filialının 5 pambıqyığan maşını, 7 nəqliyyat traktoru və 14 qoşqulu lafeti start xəttindədir.

Artıq bir neçə gündür ki, seçmə yolla əllə pambıq yığımına başlanmışdır. Yığımla bağlı qərargah yaradılmış, fermerlər, torpaq mülkiyyətçiləri, inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri və əlaqədar təşkilat rəhbərləri, habelə mütəxəssislərin iştirakı ilə müşavirə keçirilmişdir. Mülkiyyətçilərdən Əltehran Nəzərov, Zəfər Adilli, Qabil Abdullayev, Vahid Mirzəyev, Məhəmməd Səfərov və başqaları yığımı mütəşəkkil keçirmək, yetişdirilən məhsulu tez və itkisiz yığmaq üçün bütün səy və bacarıqlarını səfərbər etmişlər.

Biləsuvarda isə 2-3 gün ərzində sahələrdən 30 tondan çox məhsul toplanaraq qəbul məntəqələrinə göndərilib. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, bu il rayonda 10 min 257 hektar sahədə pambıq əkilib. Mütəxəssislər builki hava şəraitini həm çiyidin vegetasiyası, becərmə, həm də yığım üçün əlverişli hesab edirlər. Digər tərəfdən, Biləsuvarda pambıq əkini üçün əlverişli şərait olduğundan və torpaq mülkiyyətçiləri tərəfindən bitkiyə aqrotexniki qaydada qulluq göstərildiyindən bu mövsüm tarlalarda bol məhsul yetişib. Artıq fermerlər məhsul yığımına başlayıblar. Gün ərzində sahələrdən 10-12 ton məhsul yığılır.

Pambıq kollarında hələlik qozaların təxminən 30 faizi açılıb. Buna görə yığım əl ilə aparılır. Yaxın vaxtlarda sahələrə pambıqyığan maşınlar da çıxarılacaq. Bunun üçün rayonda ciddi hazırlıq görülüb, 29 kombayn və 112 digər lazımi texnika hazır vəziyyətə gətirilib.

Qeyd edək ki, bu il biləsuvarlı pambıqçılar sahələrdən 30 min ton pambıq yığmağı qarşılarına məqsəd qoyublar. Xatırladaq ki, ötən il məhsul istehsalçıları sahələrdən 22 min 394 ton xam pambıq tədarük etmişlər.

# Halal zəhmət, xoş güzəran

*Əvvəli 1-ci səh.*

Qarşıya çıxan irili-xırdalı problemlərin həlli üçün etdiyimiz müraciətlər rayon rəhbərliyi səviyyəsində operativ həllini tapırdı.

Tofiq İsmayılovun rəhbərlik etdiyi fermer təsərrüfatı bu il 40 hektar sahədə pambıq əkib becərmişdir. Artıq yavaş-yavaş ağ örpəyə bürünən tarlalar bol məhsuldan xəbər verir. Bütün varlığı ilə bağlandığı bərəkətli torpaq, halal zəhmət Tofiq İsmayılovu ildən-ilə zirvələrə ucaldır, uğurlara qovuşdurur. Belə illər sırasında keçən ilin nəticələri daha fərəhli oldu. 2018-ci ildə 285 ton "ağ qızıl" istehsal olunmuş, məhsuldarlıq 57 sentnerə yüksəlmişdir. Tofiq kişi deyir ki, bu nailiyyəti dövlətin güclü dəstəyi sayəsində qazanıblar:

- Amma bu, son deyil. Cari ilin hədəfləri daha yüksəkdir. Çünki boynumda Prezidentin haqqı var. Həyatımın ən əziz və unudulmaz anı Prezident İlham Əliyevin "Birinci dərəcəli əmək ordeni"ni mənə təqdim etməsidir. Dövlət başçısı ordeni döşümə sancıb "Təbrik edirəm, bu, sənin halal zəhmətinin haqqıdır" dedi. Həyəcanlı olsam da, özümü toparlayıb deyə bildim ki, sağ olun, cənab Prezident, bu uğurları Sizin böyük qayğınız sayəsində qazanmışıq. Söz verdim ki, bundan sonra daha böyük məsuliyyətlə çalışacaq, nailiyyətləri artıracağıq. Nəticə göz qabağındadır. Məhsulumuz bu il də boldur.

Söhbət bu məqama çatanda Tofiq kişidən xahiş etdik ki, pambıqçılıqdan qazandığı gəlirdən də danışsın. Məmnuniyyətlə razılaşdı: "Keçən il 50 hektarda pambıq əkib-becərdik. İl ərzində çəkdiyimiz bütün xərcləri çıxandan sonra xalis qazancımız 70 min manatdan çox



oldu. Buna 10 hektar sahədə əkdiyimiz taxıldan, yüksək məhsuldar qaradolaq cinsli qoyunçuluq təsərrüfatından əldə etdiyimiz gəliri də əlavə etsək, böyük bir rəqəm alınar. Bu isə yaxşı yaşamaq üçün təbii ki, yetərlidir".

Tofiq İsmayılov bacarıqlı təsərrüfatçı olmaqla yanaşı, həm də köhnə kişilərdəndir - mehriban bir ailənin başçısıdır. İki qız, bir oğul atası, səkkiz nəvənin babasıdır. Oğlu Fəqan Moskvada bizneslə məşğuldur. Köçürdüyü qızları Göyçək Bakıda, Rəsmiyyə Moskva şəhərində yaşayır. Hər il yayda nəvələri hər cür şəraiti olan doğma ocağa yığışır. Tofiq kişi son olaraq dedi ki, bizi belə xoş günlərə qovuşduran dövlətimizin dəstəyi və halal zəhmətimizdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# ADAU-nun tələbələri Kənd Təsərrüfatı Nazirliyində təcrübədə olublar

Bu il ilk dəfə olaraq ADAU-nun tələbələri Kənd Təsərrüfatı Nazirliyində təcrübə proqramında iştirak ediblər.

Bir ay davam edən təcrübə proqramı çərçivəsində ADAU-nun aqrar inkişaf könüllüləri nazirliyin müvafiq şöbələrində təcrübə keçiblər. Təcrübə proqramının əsas məqsədi tələbələri Kənd Təsərrüfatı Nazirliyinin iş prinsipi ilə yaxından tanış etmək, onlara aqrar sahəyə göstərilən dövlət dəstəyi barədə ətraflı məlumat vermək, eləcə də sənədlərin düzgün tərtib edilməsi və göndərilməsi ilə bağlı bacarıqlar formalaşdırmaq idi. Proqram tələbələrə təcrübə qazanmaq imkanı verməklə yanaşı, gələcəkdə aqrar sahədə çalışmaq arzusunda olanlara növbəti dövlət dəstəyinin nümunəsidir.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu növbəti işgüzar forumunu Xaçmaz rayonunda keçirib. Forum çərçivəsində Xaçmazın iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan intensiv bağçılıq, tingçilik, cins heyvandarlıq, arıçılıq təsərrüfatlarının, logistik mərkəzin, quru meyvə istehsalı və süd emalı müəssisələrinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.

# Güzəştli kreditlərin əsas hissəsi aqrar sektora verilir

## Təkcə Quba-Xaçmaz iqtisadi rayonu üzrə ayrılan güzəştli kreditlərin məbləği 217 milyon manatdan çoxdur

Tədbirdə çıxış edən İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, sahibkarlığın genişləndirilməsi və özəl bölmənin iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirlərinin sistemli və ardıcıl olaraq davam etdirildiyini vurğulayıb. Bu baxımdan sahibkarların maliyyə resursları ilə təmin olunmasının əsas mexanizmlərdən olduğunu vurğulayan S.Məmmədov bu ilin ötən dövründə 721 sahibkarın ümumi dəyəri 265,8 milyon manat olan investisiya layihələrinə 76,2 milyon manat güzəştli kredit verildiyini, bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılmasının 3000-dək iş yerinin açılmasına imkan yaratdığını qeyd edib.

İşgüzar forum çərçivəsində Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən 41 sahibkara 3,8 milyon manat güzəştli kredit verilib. Verilən kreditlər turizm, heyvandarlıq, bağçılıq, aqroparkın yaradılması, tara istehsalı və s. sahələrə yönəldiləcək. Bu kreditlərdən yararlanmaqla investisiya layihələrinin reallaşdırılması hesabına 300-dən çox iş yerinin açılması mümkün olacaq. Ümumilikdə, bugünkü tədbirdə verilən kreditlər də daxil olmaqla indiyədək Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2731 investisiya layihəsinin maliyyələşdirilməsinə 217,3 milyon manat güzəştli kredit verilib.

Tədbir çərçivəsində Xaçmazda güzəştli kredit ayrılan fındıq emalı müəssisəsinə baxış keçirilib.

# Yeni qiymətləndirmə sistemi ilə aqrar kreditlər daha əlçatan olacaq



Azərbaycanda aqrar kreditlərin qiymətləndirilməsi üçün yeni sistem istifadəyə verilir. Sistem Aqrar Kredit və İnkişaf Agentliyi üçün AYİB və Aİ-nin dəstəyi, Frankfurt Maliyyə və İdarəetmə Məktəbinin iştirakı ilə hazırlanıb.

AzALES (Azərbaycan Kənd Təsərrüfatı Kreditlərinin Qiymətləndirilməsi Sistemi) adlanan yeni alət aqrar sahədə risklərin daha yaxşı qiymətləndirilməsinə və kredit müraciətlərinə daha sürətlə baxılmasına imkan verəcək.

Kənd Təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov yeni mexanizmin hazırlanmasına 2015-ci ildən başlandığını, layihənin uğurla başa çatdığını bildirib. Onun sözlərinə görə, kənd təsərrüfatı sektorunda risklərin dəyərləndirilməsi maliyyə qurumları üçün çox vacibdir və AzALES banklara bu imkanları təqdim edir.

"Kredit təşkilatlarında, xüsusilə rayon filiallarında kreditlərin qiymətləndirilməsi üzrə kifayət qədər təcrübəli mütəxəssislərin olmaması səbəbindən bu qurumlar riski üzərinə götürmək istəmir. Buna görə də ya fermerlərin aqrar kredit müraciətləri rədd edilir, ya qiymətləndirmə prosesi uzun sürərək fermerin işini yubadır, ya da kreditin məbləğindən qat-qat artıq dəyərə malik daşınmaz əmlak girov tələb olunur. Bu da kənd təsərrüfatı məhsulları istehsalçılarının uzunmüddətli, etibarlı və sərfəli maliyyəyə çıxışına maneə yaradır. AzALES banklara riskləri daha yaxşı qiymətləndirməyə və kredit müraciətlərinə sürətlə baxmağa imkan verəcək" deyə Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev deyib.

Sistem fermerlərin maliyyəyə çıxışını asanlaşdırdığı kimi, kredit təşkilatlarına da işçi və resurslara qənaət, riskləri doğru qiymətləndirmək və yüksək müştəri xidmətləri imkanı verəcək.

Yeni sistem Aqrar Kredit və İnkişaf Agentliyinə müvəkkil kredit təşkilatlarının kredit müraciətçiləri ilə işləməsinə nəzarət mexanizmi də təqdim edir. "Biz fermerlərə kredit təşkilatlarının imtina səbəblərini izləmək imkanı qazanacağıq. Belə ki, AzALES Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən mərkəzləşdirilmiş qaydada idarə ediləcək və ölkənin bütün maliyyə sektoru üçün əlçatan olacaq" - Mirzə Əliyev deyib.

"İqtisadi diversifikasiya strategiyasının bir hissəsi olaraq, kənd təsərrüfatını modernləşdirmək üçün Azərbaycan hökumətinə resurslar lazım olduğu zaman AzALES-in əhəmiyyəti böyükdür" - Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq bölməsinin rəhbəri, müşavir-elçi Simona Qatti yeni sistemin vacibliyini belə şərh edib.

# Balakən qarğıdalı istehsalı üzrə ixtisaslaşır

Builki mövsümdə Balakən rayonunda 7213 hektar qarğıdalı sahəsinin məhsulunun yığılması nəzərdə tutulur. Qarğıdalı bitkisinin əkin sahəsi ötən illə müqayisədə 173 hektar artırılıb.

Bir neçə gündür ki, təsərrüfatlarda qarğıdalı yığılır. Qabaqçöl, Hənifə, Şambul, Qullar kəndlərinin ərazisindəki təsərrüfatlarda ilk günlər 250 hektaradək sahənin məhsulu toplanıb. Hələlik hər hektardan orta hesabla 60 sentnerədək məhsul götürülür. Cari mövsümdə rayonda qarğıdalı istehsalının 44 min tona çatacağı gözlənilir.

Qarğıdalı istehsalı Balakən rayonunun kənd təsərrüfatında aparıcı yerlərdən birini tutur. Mövcud təbii iqlim şəraiti rayonun bu sahə üzrə ixtisaslaşmasına, onun daha da inkişafına imkan verir. Bunun nəticəsidir ki, son illər Balakən fermerlərində bu sahəyə maraq xeyli artıb. Hazırda Balakən rayonu qarğıdalı bitkisinin əkin sahəsinə və istehsal olunan məhsulun həcminə görə ölkədə birincilər sırasındadır. 2018-ci ildə balakənli fermerlər 7 min 40 hektar qarğıdalı sahəsindən 43 min ton məhsul əldə etmişlər.

# Yardımlıda tütünçülüyə maraq artıb

Dağ rayonlarında əhalinin məşğuliyyəti əsasən heyvandarlıq olur. Amma dövlətin dəstəyi ilə bir çox dağ rayonlarında, o cümlədən Yardımlıda son illər, daha doğrusu, 2016-cı ildən başlayaraq tütünçülük də inkişaf edir.



Həmin il rayon üzrə vur-tut 10 hektarda tütün əkini aparılmışdı. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Şahlar Əliyev dedi ki, tütün əkininin həcmi ilbəil artırılaraq 2017-ci ildə 43, 2018-ci ildə 50,6, bu il isə 55 hektara çatdırılmışdır.

Bu il də sahələrə nümunəvi qulluq göstərilməsi nəticəsində yaxşı məhsul yetişmişdir. Ş.Əliyev bildirdi ki, son həftələr havaların yağışlı keçməsi məhsuldarlığa xeyirdir. Direktor onu da əlavə etdi ki, Ərus, Vərgəduz, Horavar, Urakəran, Çayüzü, Şiləvəngə, Avaş kəndləri ərazisində əkilmiş tütün sahələrindən cari ildə 440 ton yaş tütün toplanması nəzərdə tutulur. Keçən il isə bu rəqəm 396 ton olmuşdur.

Yığılan məhsulun tədarükü ilə rayonda fəaliyyət göstərən "Dəniz 2010" MMC məşğuldur. Müəssisədə 8 qurutma kamerası var və onların hər biri həftə ərzində 3-4 ton yaş tütün qəbul edib qurudur. Qurudulan məhsul sonra Zaqatala rayonundakı tütün qəbulu məntəqəsinə göndərilir.

Hazırda rayon üzrə 130 nəfər tütün istehsalı ilə məşğuldur. Qarşıdan gələn illərdə əkin sahələri daha da genişləndiriləcək və burada çalışan işçilərin sayı xeyli artacaq.

*Xəbərlər hazırlanarkən AZƏRTAC-ın informasiyalarından istifadə edilmişdir*

# AXA 3 rayonda fermerlərə təlim keçib

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) baytar mütəxəssisləri tərəfindən Şəmkirdə, Tovuzda və Ucarda fermerlərə təlimlər keçirilib.

Aqrar Xidmətlər Agentliyinin Şəmkir Rayon Baytarlıq İdarəsinin rəisi Məhəmməd Qasımovun rəhbərliyi ilə baş tutan təlimdə davar heyvanların çiçək xəstəliyinin kliniki əlamətləri, təsərrüfata verdiyi ziyanlar, xəstəlik əleyhinə aparılan profilaktika və müalicə tədbirləri haqqında ətraflı məlumat verilib.

Tovuzda 21 nəfərin iştirakı ilə keçirilən təlimdə isə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Tovuz Rayon Baytarlıq İdarəsinin rəisi Zülfüqar Kərimov davar heyvanlar arasında baş verən xüsusi təhlükəli xəstəliklər barədə məlumat verib. Bildirilib ki, davar heyvanlara ən çox zərər verən infeksion xəstəliklərdən biri də çiçək xəstəliyidir. Bu xəstəliyin ümumi müddəti 3-4 həftə çəkir. Yekun çox vaxt sağalma ilə nəticələnir. Əgər çiçək ana qoyunlarda boğazlıq dövründə baş verərsə, balasalma baş verə bilər.

Təlimdə fermerlərə davar heyvanlar saxlanılan təsərrüfatda yoluxucu xəstəliklərin baş verməməsi üçün dövlət tərəfindən verilən peyvəndlərin vurulmasından yayınmamaq, təsərrüfatda tez-tez dezinfeksiya işləri aparmaq və xəstəlik halları baş verərsə, mütəmadi olaraq baytarlıq idarəsi ilə əlaqə saxlamaq tövsiyə edilib.

Tədbirdə həmçinin çiçək xəstəliyi barədə ətraflı danışılıb. Xəstəliyin yoluxma və xəstəlikdən qorunma yolları haqqında təlim iştirakçılarına məlumat verilib. Xəstəlikdən qorunmağın ən etibarlı yolunun vaksinasiya olduğu bir daha vurğulanıb. Həmçinin qeyd edilib ki, cari il ərzində Tovuz rayonunda 229988 baş davarda çiçək xəstəliyinə qarşı peyvəndləmə aparılıb.

Ucarda 9 fermerin iştirakı ilə baş tutan təlimdə isə quşlar arasında baş verən çiçək və nyukasl xəstəlikləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, quşçuluğa ən çox zərər verən infeksion xəstəliklərdən biri də nyukasl və çiçək xəstəlikləridir. Nyukasl və çiçək xəstəlikləri quşlar arasında kütləvi ölümə səbəb olur. Bu xəstəlikdən ev quşlarını qorumağın ən etibarlı yolu vaxtında peyvəndləmə aparılmasıdır.

Təlimdə fermerlərə quşların nyukasl və çiçək xəstəlikləri, xəstəliklərin başvermə səbəbləri, iqtisadi zərəri, xəstəliklərə qarşı aparılan peyvəndləmə və digər baytarlıq tədbirləri barədə ətraflı məlumatlar verilib, xəstəliklərin profilaktikasında istifadə olunan vaksinlərin və başqa vasitələrin dövlət vəsaiti hesabına alındığı, təsərrüfatlarda saxlanılan quşlara təmənnasız tətbiq olunduğu bildirilib.

Təlimlərin sonunda fermerləri maraqlandıran suallar cavablandırılıb və geniş fikir mübadiləsi aparılıb.

# Kaspi Təhsil Şirkəti ötən tədris ilindəki fəaliyyəti ilə bağlı ictimaiyyətə hesabat verdi






Artıq 12 ildir amalı mükəmməl milli təhsil olan və keyfiyyətli tədrisi ilə fərqlənən Kaspi Təhsil Şirkəti media nümayəndələri ilə görüşüb. Şirkətin ötən tədris ilindəki uğurlu fəaliyyəti mediaya təqdim olunub.

AZƏRTAC xəbər verir ki, hesabat tədbiri Kaspi liseylərinin və Kaspi abituriyent kurslarının nəticələrinin təqdimatı üzrə iki mərhələdə keçirilib.

Tədbiri açıq elan edən Təhsil Şirkətinin baş direktoru Elnur Əliyev ötən il təhsil sistemində və imtahan qaydalarında dəyişikliklər haqqında danışıb. Qeyd edib ki, yeni imtahan sistemi şagirdlərin bilikləri ilə yanaşı, bacarıqlarının da bir neçə aspektdən yoxlanılmasına şərait yaradıb. Kaspi Təhsil Şirkəti də bu dəyişiklikləri müsbət qarşılayaraq şagirdlərin yeni qaydalara adaptasiyasına kömək göstərib.

Elnur Əliyev çıxışında 2019/2020-ci tədris ilindən etibarən Kaspi liseyinin ingilis bölməsinin açılmasından, Bakının Nərimanov rayonunda yeni açılmış Kaspi uşaq bağçasının Gənclik filialından, Sumqayıtdakı Kaspi uşaq bağçasının nəzdində yeni istifadəyə verilmiş Kaspi Kids kurslarından, həmçinin Balakəndə, Bakının Mərdəkan qəsəbəsində yeni fəaliyyətə başlayacaq Kaspi abituriyent nümayəndəliklərindən və tədrisin keyfiyyətinin artırılması istiqamətində görüləcək işlərdən danışıb.

Tədbirdə çıxış edən Kaspi Təhsil Şirkətinin təsisçisi Sona Vəliyeva Ümummilli Lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, dahi rəhbərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Müasir dünyada təhsilin mühüm rolunu vurğulayan S.Vəliyeva dövlət başçısının bu sahənin inkişafına göstərdiyi xüsusi diqqət və qayğıdan bəhs edib.

Kaspi Təhsil Şirkətinin təsisçisi təhsil sahəsində uğurlu addımlar atıldığını, müasir tələblərə cavab verən yeni məktəb binalarının tikilib istifadəyə verildiyini, təhsil ocaqlarının maddi-texniki bazalarının daha da möhkəmləndiyini, səmərəli layihələrin həyata keçirildiyini deyib.

Şirkətin fəaliyyəti barədə məlumat verən S.Vəliyeva abituriyent kurslarının əvvəlki illərdə uğurunu bu il də təkrarladığını qeyd edib. O, Prezident təqaüdünə layiq görülən Əsmər Hacızadə, Məzahir Məmmədov və Vüqar Rufullanın nəticələrini xüsusilə qeyd edib. 35 abituriyentin 600-dən yuxarı nəticə göstərdiyini və Əsmər Hacızadənin 690.5 bal toplayaraq I qrup üzrə respublika birincisi olduğunu, ümumilikdə Kaspi abituriyent kurslarının bu il qəbul imtahanlarında göstərdiyi nəticənin 98 faiz olduğunu vurğulayıb.

Sona Vəliyeva qeyd edib ki, ötən il Kaspi liseyinin məzunları əvvəlki illərin uğurunu təkrarlayaraq qəbul imtahanlarında bu il də 100 faiz nəticə göstəriblər. 2018-2019-cu tədris ilində ali məktəblərə qəbul imtahanının yekunlarına əsasən, Kaspi liseyi özəl məktəblər arasında ən yüksək nəticə göstərib, son 2 tədris ilində isə buraxılış imtahanlarının nəticələrinə görə lisey respublika üzrə 1-ci yeri tutub. Tədris ocağının məzunlarından 12-si nüfuzlu xarici universitetlərə qəbul olunub, builki məzunlardan Nigar Alıyeva liseyi qızıl medalla bitirib, respublika fənn olimpiadasında gümüş medal qazanıb, qəbul imtahanında isə 600-dən yuxarı bal toplayaraq BDU-nun Hüquq fakültəsinin ingilis bölməsinə qəbul olunub.

Bildirilib ki, Kaspi liseyi, həmçinin 2018-2019-cu tədris ilində layihə olimpiadalarında ümumi 38 olmaqla 6 qızıl, 9 gümüş, 23 bürünc medal qazanıb və bununla da 2015-ci ildən etibarən liseyin hesabındakı medal sayı 83-ə çatıb.

Çıxışının sonunda Sona Vəliyeva Kaspi abituriyent kurslarında, Kaspi liseylərinin 2018/2019-cu tədris ilində ali məktəblərə qəbul olunmuş bütün məzunlarını, onların valideynlərini və Kaspinin müəllim heyətini təbrik edib, onlara uğurlar arzulayıb.

Tədbirdə builki qəbul imtahanlarında yüksək nəticə göstərmiş Kaspi liseyinin və Kaspi abituriyent kurslarının məzunları, onların valideynləri, müəllimlər və təhsil aldıqları Kaspi müəssisələrinin rəhbərləri çıxış ediblər.

Çıxışlarda Kaspi Təhsil Şirkətindəki tədrisin keyfiyyəti, müəllimlərin peşəkarlığı, onlara göstərilən diqqət və qayğıdan məmnunluq ifadə olunub, sistemli və uğurlu fəaliyyətə görə Kaspi ailəsinə təşəkkür edilib.

Tədbir qəbul imtahanlarında uğur qazanmış Kaspi məzunlarının və müəllimlərinin mükafatlandırılması ilə yekunlaşıb.

# Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı müsabiqədə qalib layihə seçilib



Hacı Zeynalabdin Tağıyevin heykəli Xalq rəssamı Xanlar Əhmədovun layihəsi əsasında hazırlanacaq.

AZƏRTAC xəbər verir ki, münsiflər heyətinin qərarına əsasən, Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondunun Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı keçirdiyi açıq heykəltəraşlıq müsabiqəsinə təqdim olunan 26 layihə arasından Xanlar Əhmədovun layihəsi qalib seçilib.

Hacı Zeynalabdin Tağıyevin heykəli "İçərişəhər" metrostansiyası yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılacaq.

Qeyd edək ki, Xanlar Əhmədov 1961-1966-cı illərdə Əzim Əzimzadə adına Rəssamlıq məktəbində, 1966-1972-ci illərdə A.Ostrovski adına Daşkənd Teatr İncəsənəti İnstitutunda təhsil alıb, 1972-1975-ci illərdə SSRİ-nin Rəssamlıq Akademiyasının aspirantı olub. 1975-ci ildə SSRİ Rəssamlar İtiffaqının üzvü olub.

2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Əməkdar rəssam fəxri adına, 2006-cı ildə isə Azərbaycan təsviri incəsənətinin inkişafındakı xidmətlərinə görə Xalq rəssamı fəxri adına layiq görülüb.

Dəzgah və monumental heykəltəraşlıq sahəsində çalışır. Bir sıra icra olunmuş monumental layihələrin müəllifidir. Əsərləri Almaniya, Fransa, Polşa, Rusiya, Türkiyə və digər ölkələrdə nümayiş etdirilib, müxtəlif muzey və şəxsi kolleksiyalarda saxlanılır.

# Azərbaycan, Türkiyə və Gürcüstan hərbçilərinin iştirak etdikləri komanda-qərargah təlimləri başa çatıb

Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə keçirilən "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimlərinin bağlanış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan, Türkiyə və Gürcüstanın Dövlət himnləri səsləndirilib.

